

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 15 (21.425)

*26 yanvar 2016-cı il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də ATƏT Parlament Assambleyası sədrinin müavinləri Georgi Tseretelinin və Kent Harstedtin başçılıq etdiyi, ATƏT PA-nın baş katibi Roberto Montellanın daxil olduğu nümayəndə heyətini qəbul edib.

Georgi Tsereteli ATƏT Parlament Assambleyasının sədri İlkka Kanervanın xəstəliyi ilə bağlı Azərbaycana səfər edə bilməməsini təəssüflə qeyd etdi. O, ölkəmizin təmsil etdiyi qurum üçün prioritet olduğunu və Azərbaycan ilə əməkdaşlığın böyük əhəmiyyət daşıdığını dedi. Georgi Tsereteli ATƏT-in həyata keçirdiyi layihələrdə Azərbaycanın iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. O, ATƏT Parlament Assambleyasının 2014-cü ildə Bakıda illik sessiyasının yüksək səviyyədə keçirildiyini məmnunluqla xatırladı. Azərbaycan ilə bu günə qədər əməkdaşlığın uğurla həyata keçirildiyini bildirən qonaq bu əməkdaşlığı konstruktiv və anlaşma ruhunda yeni mərhələdə davam etdirmək niyyətində olduqlarını dedi.

Dövlətimizin başçısı ATƏT Parlament Assambleyası sədrinin müavini Georgi Tseretelinin ölkəmizə səfərinin məhsuldar və səmərəli olacağına ümid etdiyini bildirdi.

Görüşdə Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının şura iclası keçirilib



***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında ötən ilin yekunları ilə bağlı keçirilən şura iclasında şura üzvləri və ilk partiya təşkilatlarının sədrləri iştirak ediblər.***

İclasda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov mövzu ilə əlaqədar məruzə edib. Qeyd olunub ki, 2015-ci ildə təşkilat öz işini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə uyğun qurmağa səy göstərərək rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Hesabat ili ərzində təşkilatın 4 şura iclası, İdarə Heyətinin 12 yığıncağı keçirilib. Yığıncaqlarda Yeni Azərbaycan Partiyasının V Qurultayının və Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi vəziyyəti diqqət mərkəzində saxlanılıb. Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş seçkilərlə bağlı məsələlər də müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilmiş sessiya və müşavirələrin yekunları, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı tərəfindən qarşıya qoyulmuş məsələlər müzakirə olunub.

Bildirilib ki, hesabat ili ərzində əlamətdar və tarixi günlərlə əlaqədar tədbirlərin keçirilməsinə diqqət artırılıb.

2015-ci ildə rayonda aparılan tikinti-quruculuq və abadlıq tədbirlərində, yaşıllaşdırma iməciliklərində partiya üzvləri nümunəvi fəallıq göstəriblər. Vurğulanıb ki, təşkilatda partiya sıralarının genişləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Bəhs olunan dövrdə Yeni Azərbaycan Partiyasının sıraları 55 nəfər artaraq partiya üzvlərinin ümumi sayı 1431 nəfərə çatıb. Onların 261 nəfərini qadınlar, 368 nəfərini gənclər təşkil edir.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyevanın və Heydər Əliyev adına Gənclər Birliyinin sədri Oğuz Əliyevin çıxışları olub.

**Muxtar MƏMMƏDOV**

***İqtisadiyyatın stabil inkişafında bank sektorunun mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikasında real sektora investisiya qoyuluşunun artırılması üçün bank sektorunda fəallıq ötən ildə də təmin olunub. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən ötən ilin yekunlarına dair verilmiş məlumatlar belə deməyə əsas verir.***

## Kreditləşmə kənd təsərrüfatının inkişafına şərait yaradıb

Banklar qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda 2015-ci ildə xeyli irəliləyiş olub. Belə ki, bank və kredit təşkilatları tərəfindən ötən il ərzində 70 milyon 221 min manat kredit verilib ki, bunun da 26 milyon 627 min manatını qısamüddətli, 43 milyon 594 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 20 milyon 860 min manatı kənd təsərrüfatının, 14 milyon 318 min manatı sənayenin, 7 milyon 162 min manatı nəqliyyatın inkişafına və digər sahələrə yönəldilib. Kredit qoyuluşu əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20 milyon 499 min manat artıb.

Kredit qoyuluşları, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak mallarının istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb. Belə ki, 2015-ci il ərzində verilmiş kreditlərin 29,7 faizi kənd təsərrüfatının inkişafına, ənənəvi istehsal və kiçik emal sahələrinin dirçəldilməsinə yönəldilib. Bu kreditlər, əsasən, muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının icrasına uyğun olaraq prioritet sayılan toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, heyvandarlığın inkişafına verilib.

## İdxal olunan məhsulların genetik modifikasiyası tam şəkildə yoxlanılacaq

Bu gün qida sahəsində dünyanın üzləşdiyi ən böyük problemlərdən biri geni modifikasiya olunmuş məhsullardır. Qısaca GMO olaraq tanınan gen mühəndisliyinə ərzaq terrorizmi də deyilir. GMO müasir biotexnologiya üsulu ilə müxtəlif mənşəli canlı orqanizmlərin geninin kombinasiyası vasitəsilə əldə edilmiş istənilən canlı orqanizmdir. Bu zaman heyvan geninin bitkiyə və əksinə, bitki geninin bitkiyə, heyvan geninin heyvana köçürülməsi baş verir.

Dünyada becərilən GMO bitkiləri, əsasən, qarğıdalı, soya, pambıq, şəkər çuğunduru, yonca, kartof, düyü, pomidor və tütündür. Hazırda 120-dən artıq müxtəlif kənd təsərrüfatı bitkisinin genetik modifikasiya olunmuş analoqları vardır. Son məlumatlara görə, onlardan 64-ü təsərrüfatlarda tətbiq olunur. Hazırda bu sahədə aktivlik göstərən 15-dək şirkət var. Artıq 20 ildən çoxdur ki, milyonlarla istehlakçı istər heyvan və quş, istərsə də bitki mənşəli GMO-dan istifadə edir. ABŞ və Avropada, o cümlədən bir çox başqa ölkələrdə transgen məhsulların ayrıca satışı həyata keçirilir. Bu problemlə bağlı Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ərzaq Təşkilatı və beynəlxalq ekoloji təşkilatlar tərəfindən həyəcan təbili çalınır. Artıq bir çox dövlətlər insan orqanizmində qarşısıalınmaz dəyişikliklər yaratdığından geni modifikasiya olunmuş məhsullara qarşı ciddi mübarizə aparır.

Ölkəmizə gəldikdə isə bizdə geni modifikasiya edilmiş məhsulların idxalı qanunla qadağan olunur. Muxtar respublikamızda da əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin olunması istiqamətində tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvanda ilk olaraq 2012-ci ildə bir gömrük laboratoriyası qurulmuş və ixtisaslı kadrlarla təmin olunmuşdur. Naxçıvan Gömrük Ekspertizası İdarəsinin laboratoriyası Cənubi Qafqazda geni dəyişdirilmiş məhsulların təyininin aparıldığı ilk və ən müasir laboratoriyadır. GMO laboratoriyasında 3 otaqlı kabin quraşdırılmış, analizlərin oxunması üçün laboratoriya ABŞ-ın Agilent firmasının PCR cihazı ilə təchiz olunmuşdur.

Yaradılan şərait gömrük orqanları tərəfindən idxal istiqamətində gətirilən ərzaq məhsullarının keyfiyyətinə və ərzaq təhlükəsizliyinə ciddi şəkildə nəzarət etməyə imkan verir. Muxtar respublikaya idxal olunan kənd təsərrüfatı məhsullarının genetik modifikasiyaya məruz qalmasının dəqiqliklə yoxlanmasını təmin etmək məqsədilə bu günlərdə Türkiyə Respublikasından dəvət olunmuş GMO mütəxəssisinin rəhbərliyi ilə kurslar təşkil olunmuşdur. Mütəxəssis Türkiyənin bu sahə üzrə dünyada tanınmış Ek-İm firmasının nümayəndəsidir.

Qeyd edək ki, Türkiyə Respublikasında mövcud olan GMO laboratoriyalarının 80 faizinin qurulmasını təmin etmiş həmin qurum bu sahədə ən təcrübəli heyətə malikdir.

Dördgünlük tədris kurslarının nəticəsi olaraq Naxçıvan Gömrük Ekspertizası İdarəsinin əməkdaşları genetik modifikasiyaya məruz qalmış kənd təsərrüfatı məhsulları, o cümlədən belə kənd təsərrüfatı məhsullarından hazırlanmış ərzaq məhsulları və hətta az miqdarda bu məhsullardan istifadə olunmaqla istehsal edilmiş ərzaq məhsullarında transgenləri təyin etməyi öyrənmişlər.

Naxçıvan Gömrük Ekspertizası İdarəsinin əməkdaşları kurslarda fəallıq göstərmiş, onlara sertifikatlar təqdim olunmuşdur. Gömrük laboratoriyasının geni dəyişdirilmiş məhsulların təyini ilə bağlı apracağı analizlərin nəticələrinin beynəlxalq səviyyədə də tanınması istiqamətində işlər davam etdirilir.

Təbii ki, Naxçıvanda geni dəyişdirilmiş məhsulların təyini istiqamətində aparılacaq analizlər xaricdən gətirilən ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti gücləndirəcək. Bununla da, muxtar respublikaya idxal olunan kənd təsərrüfatı məhsullarının genetik modifikasiyaya məruz qalıb-qalmaması tam şəkildə yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Əmək pensiyalarının artırılması 48 min 56 nəfərə şamil ediləcək

***Əmək pensiyalarının müntəzəm olaraq artırılması, pensiyaların vaxtlı-vaxtında pensiyaçılara ödənilməsi, pensiya təminatı ilə bağlı müvafiq qanunların qəbul edilməsi, ölkədə ilk dəfə olaraq yeni mexanizm hesab edilən fərdi uçot sisteminin qurulması, yaşa görə əmək pensiya hüququ olan sığortaolunanlara avtomatlaşdırılmış qaydada pensiyaların təyin edilməsi, əmək pensiyalarının pensiyaçılara plastik kartlar vasitəsi ilə ödənişinin təşkil edilməsi və digər bu kimi işlər ulu öndərimiz Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"nın yüksək səviyyədə reallaşması nəticəsində mümkün olmuşdur.***

Ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması haqqında" 16 yanvar 2016-cı il tarixli Sərəncamına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılaraq 110 manat məbləğində müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan verilən məlumatda bildirilir ki, yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması nəticəsində "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsində nəzərdə tutulmuş şəxslərin, Azərbaycanın Milli qəhrəmanlarının və şəhidlərin ailə üzvlərinin, əlillərin və digər şəxslərin əmək pensiyalarının baza hissəsi 10 faiz artırılmaqla, onların pensiyalarının baza hissəsinin üzərinə müvafiq əlavələr də hesablanaraq ödəniləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının yenidən hesablanması məqsədilə fondun şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilmiş və əmək pensiyaçılarının pensiyalarının baza hissəsinin məbləğinin 10 faiz artırılması prosesi başa çatdırılmaqdadır. Fond tərəfindən bütün növ əmək pensiyaları üzrə 48 min 56 nəfər əmək pensiyaçısının pensiyasının (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kimi əmək pensiyası alan pensiyaçılar istisna olmaqla) baza hissəsinə 10 faiz artım tətbiq ediləcəkdir. Bu da muxtar respublika üzrə ümumi pensiyaçıların 93 faizini təşkil edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar ölkə başçısının Sərəncamına uyğun olaraq 2016-cı ilin fevral ayının pensiya ödənişində əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürüləcəkdir.

**Xəbərlər şöbəsi**

# "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" uğurla icra olunmuşdur

***İlkin şəhərsalma mədəniyyətinin izlərini özündə yaşadan qədim Naxçıvan şəhəri bu gün yeni inkişaf dövrünü yaşayır. Son illər şəhərin prospekt, küçə və məhəllələri abadlaşdırılmış, park və xiyabanlar salınmış, yeni inzibati və yaşayış binaları tikilmiş, yeni sosial obyektlər istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın icrası bu işlərin davamlı olmasına imkan vermiş, Naxçıvan şəhərində tikinti-quruculuq, yaşıllaşdırma və abadlıq işlərinin həcmi artmışdır.***



Naxçıvan şəhərində əhalinin rahatlığına xidmət edən müasir infrastruktur yaradılmış, şəhərin İslam Səfərli küçəsində yenidənqurma işləri aparılmış, Əliabad qəsəbəsində geniş abadlıq-quruculuq tədbirləri görülmüşdür. Tikinti-quruculuq işləri şəhər mərkəzi ilə yanaşı, ətraf kəndləri də əhatə etmişdir. Belə ki, Qaraçuq kəndində kompleks quruculuq işləri görülmüş, yeni kənd və xidmət mərkəzləri tikilib istifadəyə verilmişdir. Hazırda bu istiqamətdə işlər Bulqan kəndində davam etdirilir.

Şəhər əhalisinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində də kompleks tədbirlər həyata keçirilmişdir. 2014-2015-ci illərdə şəhərin Atatürk, Kazım Talıblı, Əziz Əliyev küçələrində yaşayış binaları tikilmiş, sakinlərin mənzil təminatı yaxşılaşdırılmışdır. Həmçinin mövcud binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmış, 13 binanın dam örtüyü və fasadı dəyişdirilmiş, Atatürk küçəsindəki 5 nömrəli ictimai yaşayış binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Yeni yaşayış binalarının tikintisi gənclərin mənzil şəraitinin yaxşılaşdırılmasına geniş imkanlar açmışdır. 2014-cü ilin may ayında Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində 3 beşmərtəbəli binadan ibarət yeni yaşayış kompleksi istifadəyə verilmişdir. Binalardakı 80 mənzilin ipoteka şərtləri ilə satışa çıxarılması gənc ailələrin mənzil təminatında mühüm əhəmiyyətə malik olmuşdur. Sözügedən küçədə geniş bir ərazini əhatə edən daha bir yaşayış kompleksinin – "Gənclər şəhərciyi"nin tikintisi isə davam etdirilir. Gənclərə göstərilən diqqət və qayğıdan söz düşmüşkən, qeyd edək ki, onların asudə vaxtının səmərəli təşkili və fəallığının artırılması məqsədilə də ardıcıl işlər görülmüş, Naxçıvan şəhərində müasir tələblərə cavab verən Gənclər Mərkəzi tikilib istifadəyə verilmişdir.

Genişmiqyaslı quruculuq tədbirləri Naxçıvan şəhərində digər sahələrin, xüsusilə təhsil müəssisələrinin müasir binalarla təminatına və maddi-texniki bazalarının gücləndirilməsinə də səbəb olmuşdur. Belə ki, Naxçıvan şəhərində 11 nömrəli və Qaraçuq kənd 9 nömrəli tam orta məktəblərin binaları əsaslı şəkildə yenidən qurulmuşdur. Həmçinin "Naxçıvan" Universiteti üçün müasir universitet şəhərciyi – inzibati və tədris binalarından, kitabxana, yataqxana, idman və konfrans zallarından ibarət yeni kompleks inşa olunaraq istifadəyə verilmişdir. Təhsil infrastrukturunun təkmilləşdirilməsi işlərindən Naxçıvan Dövlət Universitetinə də pay düşmüş, Baytarlıq təbabəti ixtisası və Universitet xəstəxanası üçün müasir binaların açılışı olmuşdur.

İnsanların sağlamlığının qorunması muxtar respublikada həyata keçirilən sosial tədbirlərin əsasını təşkil edir. Naxçıvan şəhərindəki səhiyyə müəssisələrinin müasir standartlara uyğunlaşdırılması, yeni xəstəxana binalarının tikilməsi proqramda icrası nəzərdə tutulan ən mühüm tədbirlərdəndir. Ötən dövrdə Naxçıvan şəhərində Yoluxucu Xəstəliklər Mərkəzi üçün yeni bina inşa edilmiş, Qaraçuqda həkim ambulatoriyasının istifadəyə verilməsi kənddə səhiyyə xidmətinin səviyyəsini yüksəltmişdir. Bu tədbirlərin yekunu olaraq ötən il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının binası istifadəyə verilmişdir.

Proqramda Naxçıvan şəhərindəki tarixi abidələrin bərpası, yeni mədəniyyət müəssisələrinin yaradılması da nəzərdə tutulmuşdur. Ötən dövrdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işləri başa çatdırılmış, Pişəvəri küçəsində Bayraq Meydanı və Muzeyi, Fəxri xiyaban, Kalbalıxan küçəsində isə Xatirə Muzeyi üçün yeni bina inşa olunmuşdur. Proqramın icrası musiqi təhsilinin inkişafına da yeni imkanlar açmışdır. Azərbaycan Respublikası Prezidentinin Naxçıvana səfəri zamanı Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin yeni binası istifadəyə verilmiş, təhsil ocağında müasir tədris imkanları yaradılmışdır. Qaraçuq Kənd Uşaq Musiqi Məktəbinin yeni binası da həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Həmçinin şəhərin "Atabəylər" məhəlləsində Şərq hamamı tikilərək sakinlərin istifadəsinə verilmişdir.

Proqramın tələblərinə uyğun olaraq Naxçıvan şəhərində əhalinin rahat həyat şəraitinin təmin olunması, kommunal-məişət şəraitinin günün tələbləri səviyyəsində qurulması diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə şəhərin müxtəlif küçələrində 42 kilometrdən artıq hava elektrik verilişi xətləri yeraltı kabellərlə əvəz edilmiş, 17 ictimai yaşayış binasında istilik sistemi dəyişdirilmişdir. Enerji təhlükəsizliyinin təmin olunması və qaz təsərrüfatı sahəsinin təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilmiş, 2015-ci ilin sonunadək şəhərdə 8 min 984 smartkarttipli elektrik və 7907 smartkarttipli qaz sayğacı quraşdırılmışdır. İçməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində də mühüm işlər görülmüş, 221 yaşayış binasına su-kanalizasiya xətti çəkilmişdir. Ümumiyyətlə, bu dövrdə 219 kilometr kanalizasiya xətləri çəkilmiş, 21 min 207 evdə su sayğacı quraşdırılmışdır. Hazırda çirkab sutəmizləyici qurğunun tikintisi aparılır. Kəhrizlərin bərpası və təmiri də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Ötən dövrdə şəhərdəki "Kalba Musa", "Naxçıvanqala", "Xandiki" kəhrizlərinin təmiri başa çatdırılıb.

Bu gün Naxçıvan şəhərində yeni texnologiyaların həyatın bütün sahələrində tətbiqi inkişafın əsas göstəricilərindən hesab olunur. Ötən dövrdə "Evədək optika" layihəsinin reallaşdırılması nəticəsində Naxçıvan şəhərində 99 fərdi evə və yeni tikilən 6 yaşayış binasına optik xətt çəkilmiş, ümumilikdə, 164 mənzildə GPON avadanlığı quraşdırılmışdır. Həmçinin şəhərin C.Məmmədquluzadə, Ə.Əliyev və "İstiqlal" küçələrində, Qaraxanbəyli kəndində, Xətai məhəlləsində, ümumilikdə, 5 ədəd yeni nəsil avtomat telefon stansiyası quraşdırılmışdır. Layihəyə əsasən, genişzolaqlı internet şəbəkəsinə qoşulma, IP televiziya və telefon xidmətlərinin daha da genişlənməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, 150 abonentə IP TV xidməti göstərilmişdir. Həmçinin simsiz internet şəbəkəsinin ən müasir texnologiyalar əsasında inkişafı məqsədilə 2014-cü ildə "Naxtel" mobil operatorunun 3G geniş zolaqlı internet xidmətini dəstəkləyən 5, 2015-ci ildə isə 4-cü nəsil LTE şəbəkəsi üçün 17 baza stansiyası qurulmuşdur.

Proqrama uyğun olaraq yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına da xüsusi diqqət yetirilmiş, şəhərdaxili yollar yenidən qurulmuşdur. Ötən dövrdə şəhərin Xətai məhəlləsində, Abbas Zamanov, Məmməd Araz, Məmmədcəfər Cəfərov küçələrində yollar abadlaşdırılmış, Qaraçuq kənd yolu yenidən qurulmuşdur. Yolların genişləndirilməsi nəticəsində ictimai nəqliyyat vasitələrinin rahat və davamlı hərəkəti təmin olunmuş, "İstiqlal" küçəsində 1, Əliabad qəsəbəsində 3 yeni dayanacaq quraşdırılmışdır. Həmçinin "Azərbaycan" küçəsində yerüstü piyada keçidinin istifadəyə verilməsi nəqliyyatın intensivliyini və piyadaların rahat hərəkətini təmin etmişdir. Bu istiqamətdə işlər şəhərin Qaraxanbəyli və Bulqan kəndlərində də davam etdirilir, İslam Səfərli küçəsində isə yeni avtomobil parkı inşa olunur. Əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində də kompleks tədbirlər görülmüş, şəhərdaxili nəqliyyatda işləyən marşrutların yenilənməsi məqsədilə 5 ədəd "King-Long", 2 ədəd "İsuzu Citybus" markalı müasir avtobus alınaraq xəttə buraxılmışdır. Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə təqdim olunan 2 ədəd "Man Neoplan" markalı avtobuslar isə beynəlxalq sərnişindaşıma xidmətinin yüksəldilməsinə mühüm töhfə vermişdir.



*Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi*



*Naxçıvan şəhərində Gənclər Mərkəzi*



*Naxçıvan Muxtar Respublika Xəstəxanası*



*Naxçıvan şəhərinin Atatürk küçəsində yeni yaşayış binası*

*"Naxçıvan" Universiteti*



Salınan park və xiyabanlar, müasir istirahət kompleksləri şəhərə xüsusi görkəm verməklə yanaşı, həm də sakinlərin və turistlərin mənalı istirahətinə, asudə vaxtının səmərəli təşkilinə xidmət edir. Bu işlər çərçivəsində Naxçıvançay vadisində "Əyləncə adası" istirahət parkı istifadəyə verilmişdir. Ərazidə yeni istirahət parkının salınması və yaşıllıqların artırılması da nəzərdə tutulur. Yaşıllaşdırma tədbirlərindən söz düşmüşkən onu da qeyd edək ki, ötən dövrdə Naxçıvan şəhərinin ətraf ərazilərində 19,1 hektarlıq meyvə bağları salınmış, 5 hektar yaşıllıq sahəsində bərpa işləri aparılmışdır.

Sahibkarlığın dəstəklənməsi iqtisadi inkişafın təmin olunmasında başlıca şərtdir. Buna görə də sahibkarlığın inkişaf etdirilməsi proqramın əsas hədəflərindən idi. 2014-2015-ci illərdə Naxçıvan şəhərində köynək, konserv taraları, ətin konservləşdirilməsi, ət qovurması və unlu-qənnadı məmulatları istehsalı, melamin lövhə, laminat örtüklü iş masası lövhəsi və

*Ardı 3-cü səhifədə*

PVC örtüklü parlaq lövhə, silikon yorğan və yaylı döşək istehsalı sahələri yaradılmış, "Cahan" AVM tikilib istifadəyə verilmişdir. Həmçinin Naxçıvan "Alt Trikotaj" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti bərpa olunmuş, müəssisədə tələbələr üçün geyim dəstləri, sukeçirməz əlcək, kostyum və yüngül ayaqqabı istehsalı sahələri yaradılmışdır. "Naxçıvan Xalça" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti də genişləndirilmiş, polietilen torba və təsərrüfat ipi, yuyucu maddələr, uşaq bezi və qəlyan kömürü istehsalına başlanılmışdır. Müəssisədə yun emalı və xalça istehsalı sahəsinin yaradılması üzrə də hazırlıq işləri görülür. Bu tədbirlərin davamı olaraq, Naxçıvan şəhərindəki "Şüşə Qablar" ASC-nin fəaliyyətinin bərpası, eləcə də toxumçuluq təsərrüfatının yaradılması məqsədilə müvafiq işlər aparılır.

Yeni istehsal və xidmət sahələrinin yaradılması kənd təsərrüfatının inkişafına da mühüm töhfələr verir. Naxçıvan şəhərindəki Mərkəzi bazarda bitkiçilik və heyvandarlıq sahələri üzrə əczaxananın istifadəyə verilməsi


*Naxçıvan şəhərinin Qaraçuq kəndi*

fermer və torpaq mülkiyyətçilərinin razılığına səbəb olmuşdur. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin maddi-texniki bazası da gücləndirilmiş, 2015-ci ildə 180 müxtəlif təyinatlı yeni texnika alınaraq muxtar respublikaya gətirilmişdir.

Muxtar respublikada sənətkarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Xüsusilə qədim xalq sənətkarlıq sahələrinin bərpası və yaşadılması istiqamətində ardıcıl işlər görülür. Bu tədbirlərin davamı olaraq, "Naxçıvan Biznes Mərkəzi" MMC-nin tabeliyində xalq yaradıcılığı emalatxanası yaradılmış, ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq və dekorativ-tətbiqi sənət kimi qədim sənətkarlıq bölmələri fəaliyyətə başlamışdır. Yaradılan şəraitin nəticəsidir ki, sənaye müəssisələrinin də xalq sənətkarlığı sahələrinə marağı xeyli artmışdır. Belə ki, "Dizayn Holdinq" Şirkətlər İttifaqının nəzdində mis üzərində döymə və ağac üzərində oyma, vitraj, "Gəmiqaya Mebel Fabriki" MMC-də ağac üzərində oyma və dekorativ-tətbiqi sənət sahələri yaradılmış, sənətkarlıq sahələri üzrə kurslar təşkil olunmuşdur. Eyni zamanda dulusçuluq sənətinin bərpası ilə bağlı tədbirlər görülmüş, Masallı rayonundan mütəxəssis cəlb olunmuş və sənət adamlarına bu qədim el sənətinin incəlikləri öyrədilmişdir.

*"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın icrası Naxçıvan şəhərinin müasir inkişafında, sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rahatlığının təmin olunmasında və rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynamışdır.*

**"Şərq qapısı"**

## *Naxçıvan məhsulları*

# Yüksək keyfiyyəti ilə seçilən *Naxçıvan duzu*





***Son illər muxtar respublikamızda irimiqyaslı layihələr reallaşdırılıb, yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəlif təyinatlı yeni istehsal müəssisələri yaradılıb. Həmçinin fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilib, mütərəqqi texnologiyalar tətbiq olunub. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikamızda müxtəlif növdə ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın çox hissəsi yerli istehsal hesabına ödənilir.***

Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Yeraltı və yerüstü sərvətlərlə zəngin Naxçıvanın təbii resurslarından biri olan Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Məlumat üçün qeyd edək ki, Naxçıvan Duzdağında əsaslı tədqiqat işləri aparılıb və bu araşdırmaların nəticələri "Naxçıvan Duzdağının qədim duz mədənləri" kitabında ətraflı şəkildə öz əksini tapıb. Kitabda Duzdağ mədəninin qədimliyi, bu mədənlərdən e.ə. III-II minillikdən başlayaraq duz çıxarıldığı, mədənçiliyin inkişaf etdirildiyi bildirilir. Tədqiqatlar nəticəsində Duzdağ mədəninin Erkən Tunc dövründə geniş istifadə olunduğu müəyyən edilib, duzun sosial və ictimai münasibətlər faktoruna çevrilərək sənətkarlığın və ticarətin, bununla birlikdə isə Naxçıvan şəhər mədəniyyətinin yaranmasına güclü təsir göstərdiyi məlum olub.

Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılıb, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilib. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində bu sənaye müəssisəsinin də fəaliyyəti tamamilə dayandırılıb. Hətta Naxçıvan bazarında xaricdə istehsal olunmuş, mənşəyi məlum olmayan duz satışına da başlanılıb.

1993-cü ildən sonra ölkəmizdə yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaradıb. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilməklə müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı müəssisəsi tikilərək istehsala başlanılıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir.

2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb quraşdırılıb. Əl əməyi yüngülləşdirilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilib. Duz mədənində istehsalatda baş verə biləcək qəzaların qarşısının alınması məqsədilə 2014-cü ildə bir sıra tədbirlər həyata keçirilib, 300 metrlik ehtiyat çıxışı yaradılıb. 1050 metr uzunluğunda olan şaxtaya duz hasilatını davam etdirmək üçün dövlət maliyyə dəstəyi ilə 250 metr əlavə edilib. Maililiyi 75 metr olan şaxtanın daha yüksək səviyyədə və təhlükəsiz işıqlandırılması məqsədilə yeni transformator qoyulub. Bundan başqa, buraya 750 metr yüksək gərginliyə davamlı kabel xətti çəkilib. Şaxtada çökmələrin qarşısını almaq üçün 18 yerdə bərkitmə işləri aparılıb, 2000 metrlik tros kanat yenisi ilə əvəz edilib. Ötən ildə də bu istiqamətdə işlər davam etdirilib, 1 nömrəli şaxtada mədənbərkitmə işləri üçün Sahibkarlığa Kömək Fondundan 40 min manat dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq işlər vaxtında və keyfiyyətlə yerinə yetirilib.

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır.

68 nəfərin işlə təmin olunduğu müəssisədə xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir.

*Daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv ötən il 5736,7 ton daşduz və 2603 ton üyüdülmüş duz istehsal edib. Müəssisə tərəfindən 2162 ton daşduz və 2755,4 ton üyüdülmüş duz satılıb. Keyfiyyət göstəriciləri ilə seçilən Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılıb. Müəssisənin balansındakı yük maşınları ilə duz bazaya daşınır, oradan da sifarişə uyğun ətraf rayonlarda fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Ümumilikdə, müəssisədə istehsal olunub ticarət obyektlərinə çatdırılan duzun 78,1 faizi Bakı şəhərində və ölkəmizin digər regionlarında, 21,9 faizi isə muxtar respublikamızda satışa çıxarılıb.*

**Kərəm HƏSƏNOV**

*Qış fəslinin ən gözəl təbiət hadisələrindən biri də qarın yağması, küçə və xiyabanların, bağ və bağçaların, çöllərin, düzlərin ağ örpəyə bürünməsidir. Bolluq, ruzi-bərəkət rəmzi olan qarın yağması bir neçə il bundan öncə təsərrüfatın müxtəlif sahələrində çatışmazlıqları ortaya çıxararaq çətinliklər yaratsa da, muxtar respublikada indi bu çətinliklər haqda söhbətin belə, açılmaması onu göstərir ki, əhalinin xidmətində olan bütün sahələrdə qışa ciddi hazırlıq işləri aparılıb.*

# Aramsız yağan qar muxtar respublika sakinlərinin qaynar həyat ritmində fasilələr yarada bilmir

Əvvəllər qış aylarında, xüsusən də qar yağanda ortaya çıxan çətinliklərdən biri də yolla, nəqliyyatla əlaqədar olub. Xüsusilə ucqar yaşayış məntəqələrinə aparan yollar mütəmadi təmizlənmədiyindən, eləcə də yola xidmət göstərməli olan qurumların səriştəsizliyi ucbatından nəqliyyatda tez-tez fasilələr yaranırdı. Ancaq bu çatışmazlıqlar aradan qaldırılıb.

Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyindən aldığımız məlumata görə, aramsız yağan qar əhaliyə ictimai nəqliyyat xidmətinin göstərilməsində heç bir problem yaratmayıb. Buna səbəb qış mövsümündə əhalinin fasiləsiz və təhlükəsiz nəqliyyatla təmin edilməsi, nəqliyyat-yol kompleksində baş verə biləcək hər hansı çatışmazlığın vaxtında aradan qaldırılması üçün nazirlik, habelə onun tabeliyində olan təşkilatlar tərəfindən kompleks tədbirlərin həyata keçirilməsidir.

Məlumatda o da bildirilir ki, qarlı və şaxtalı havalarda nəqliyyata olan tələbatın artması nəzərə alınaraq "Naxavtoyol" Dövlət Şirkətində qış mövsümündə işləyən avtomaşın və yol texnikasının saz vəziyyətə gətirilməsi də nəqliyyatın fasiləsiz fəaliyyətinə şərait yaradıb. Muxtar respublikada fəaliyyətdə olan 1473 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yollarına nəzarət artırılıb, yollarda hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra işlər görülüb. Belə ki, şirkətin balansında olan 12 ədəd avtoqreyder, 29 ədəd özüyükünüboşaldan avtomaşın, 8 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 3 ədəd ekskavator, 5 ədəd avtoyükləyici və 1 ədəd qartəmizləyən mexanizm işlək vəziyyətdədir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikamıza yağan qar və soyuq hava şəraiti avtonəqliyyat xidmətinin ahəngdar işini poza bilməyib. Ucqar dağ kəndlərinə gedən yollar da tez bir zamanda qardan təmizlənib və istifadə olunacaq vəziyyətə gətirilərək marşrutların fəaliyyəti təmin edilib.

Qışın sərt üzünü göstərdiyi bu günlərdə əhali elektrik enerjisi ilə tam təmin olunub. Bu barədə Dövlət Energetika Agentliyindən aldığımız məlumatda bildirilib ki, qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformator yarımstansiyalarının texniki baxışdan keçirilməsi, istismara yararsız, standartlara uyğun gəlməyən, bir çox hallarda qəzalara səbəb olan elektrik avadanlıq və xətlərinin yenilənməsi, Naxçıvan şəhərində yerüstü elektrik xətlərinin yeraltı kabellərlə əvəz olunması, enerji israfçılığına yol verilməməsi, texniki itkinin minimum həddə saxlanması əhalinin qarlı günlərdə elektrik enerjisi ilə tam təminatına imkan yaradıb. Bundan başqa, Dövlət Energetika Agentliyinə tələb olunan mal-materialın, avadanlıqların alınıb gətirilməsi, zəruri ehtiyat yaradılması, qəza-bərpa briqadalarının komplektləşdirilməsi və onların təlimatlandırılması yağan qarın qarşıya çıxardığı çətinliklərin qısa zamanda aradan qaldırılmasına imkan verir.

Qarlı günlərdə əhalinin mavi yanacaqla təminatı da yüksək səviyyədədir. "Naxçıvanqaz" İstehsalat Birliyindən bildirilib ki, qaz təchizatı sistemində texniki baxış tədbirləri qısa müddətdə və yüksək səviyyədə həyata keçirilib, nasazlıqlar vaxtında aşkar edilərək aradan qaldırılıb və təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görülüb. Yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqlarının müəyyən edilərək yenilənməsinə nəzarət artırılıb, sayğacdankənar istifadə hallarının qarşısının alınması üçün ciddi tədbirlər görülüb. Naxçıvan şəhərində mövcud sayğacların smartkarttipli sayğaclarla əvəzlənməsi davam etdirilir.

Qarlı havada əhalinin əsas qayğılarından biri də istilik təminatıdır. Bu məqsədlə şəhər və rayonlarda müvafiq icra hakimiyyətləri tərəfindən qazanxanalarda elektrik enerjisi, təbii qaz və su təchizatı məsələləri araşdırılıb, nöqsanlar aradan qaldırılıb. İctimai yaşayış binalarının zirzəmilərindən keçən istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığı araşdırılıb, qış mövsümünə hazırlıqla bağlı müvafiq tədbirlər görülüb. Həmçinin kommunal xidmət texnikalarının saz vəziyyətdə olması nəzarətdə saxlanıb.

Bütün bu sadalananlar onu deməyə əsas verir ki, bu gün muxtar respublika əhalisi bundan iki onillik öncəsində olduğu kimi yağan qarın yaratdığı problemlərlə yaşamır. İndi aramsız yağan qarın yaratdığı təbiət mənzərələri insanlara ancaq və ancaq mənəvi zövq verir, onları yaşamağa və yaratmağa, gələcəyə daha nikbin nəzərlərlə baxmağa sövq edir. Bir də hamı bilir ki, bu qar bolluq, bərəkətdir. Yaz və yay aylarında su və məhsul bolluğudur.

**Səbuhi HÜSEYNOV**

## Ənənəvi qış süfrəsi

***Naxçıvan torpağı Avropa-Asiya qovuşuğunda tamamilə fərqli mötədil iqlimdə yerləşir. Yayı od ələyən, qışı bəzən 35-40 dərəcə şaxtaya çatan fəsilləri var bu yurd yerinin.***

Yaşadığım Şahbuz rayonunun Ayrınc kəndində 1983-cü ilin yanvar ayının 21-də sübhə yaxın 41 dərəcə şaxta qeydə aldım. Həmin ildə gilənardan savayı ayrı meyvəyə rast gəlmədim. Kolanı kəndində bağban Məzail baba var idi, deyərdi ki, bilsəydim, qış belə şaxtalı keçəcək, ərik ağacını da basdırardım, barı bada getməsin.

Buna baxmayaraq, yerli əhali həmişə qışa hazırlıqlı olur. Bu gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikanın Naxçıvan şəhərindən tutmuş ta ucqar dağ kəndlərinədək hər yaşayış məntəqəsində mavi qaz yanır, elektrik enerjisinin verilməsində fasilə yoxdur. Dövlət qayğısı ilə bütün məktəblərdə, sağlamlıq ocaqlarında, mədəniyyət müəssisələrində yay fəslinin istiliyi kimi rahatlıq yaradılmışdır.

Qışın gözəlliyi var. Torpaq qar yorğanını başına çəkib yuxuya gedir, çaylar sırsıra buz bağlayır, insanlar yay və payız fəsillərində yığdığı bar-bəhərdən qışda halal süfrə açırlar.

Tərəvəz məhsullarından kartof, kələm, lobya, pomidor, xiyar, boranı, çillə qarpızı, meyvələrin hər çeşidindən qışa ruzi tədarük olunur, hər cür mürəbbələr, kompotlar hazırlanır. İnsanlar dincəlir, yaza qüvvə toplayırlar. Elə qədim, milli xörəklərimiz var ki, günü bu gün də yaşamaqdadır.

*Boranı.* Bu bitkinin elmi adı balqabaqdır. Kəndimizdə Hənifə müəllim ildə azı yarım tonadək balqabaq yetişdirir, özü də hər biri 25-30 kiloqram ağırlığındadır.

Elə ki, çillələrdə güclü qar, çovğun, boran olanda onda balqabaqdan dadı damaqdan getməz yeməklər hazırlanır. Yayda bişirilsə, boran olan çağların dadını verməz. Bəlkə, buna görədir ki, kudu, balqabaq adı ilə yanaşı, boranı da adlanır. Boranını qabığı dilim-dilim soyulmaqla doğrayıb lobya, noxud, erkək-öyəc qovurması, duzu ilə birlikdə çölməyə yığıb təndirin közünə qoyardılar, hər 2-3 saatdan bir çölməyin dibində yanıb qazmaq əmələ gətirməsin deyə su əlavə edərdilər, ətri evi bürüyərdi. Təəssüf ki, həmin dədə-baba sortları, qovun kimi olan balqabaq növlərinin toxumçuluğu ləğv olundu. İndilər 20-30 kiloqramlıq boranılarda 50-60 il bundan əvvəlkilərdə olan şirinlik yoxdur. Dağ kəndlərində tək-tük şirin növləri qalmışdır. Boranının çəkilən şirəsi çiy halda ən qiymətli ürək-damar dərmanıdır.

*Əvəlik qovurması.* Əvəliyin el arasında “qara” və “dikcə” növləri vardır. Yazdan yığılıb saç kimi hörülərək eyvanda kölgədə qurudurlar. Qara əvəlik sinə sətəlcəmi və öskürmədə unlu umaca qatılanda əsl məlhəm olur. Dikcəyə çox adam “Şıppır” da deyir.

Əvəlikdən soğançalı, qovurmalı bişirilən xörək mədə-bağırsaq məlhəmidir, asanlıqla həzm olunur.

*Kecab.* Şahbuzun Qala güneyi, Səhlalı massivlərinin kolluqları dibində bitir. Onu da yığıb saç kimi hörüb kölgədə qurudurlar. Qışda qovrulanda əvəlik kimi dadlı-tamlı, faydalı olur.

*Qırxbığan.* Elmi adı yol otudur. Dadlı qovurması olduğu kimi, böyrək axarlarının da ən gözəl dərmanıdır. Dağlarda, oba yollarında bitir, səliqə ilə yığılıb kölgədə qurudulur.

*Qurut.* Yaylaqda, obalarda süzmə qatıqdan xırda-xırda kündələnib qurudarlar. Əngənək deyilən saxsı qabda əllə ovxalana-ovxalana əzilər, qovurmalı, soğançalı xörəyi hazırlanar, lavaşla doğranıb yeyilər. Qan təzyiqi olanların sevimli qış xörəyidir.

Arandakılar yaylağa səbətdə tut, gilas, gilənar, ərik sovqatı göndərər, pay səbətini boş qaytarmazlar. Yaylaqdakılar isə arana süzmə qatıq, qurut, pendir göndərərlər. Hər kim pay-puşu unudarsa, məsəldi deyərlər:

*Aranda tutdan olduq,*
*Dağda qurutdan...*

Çəkmə, sıyıq əriştə, əriştəli-mərciməkli, üz-gözlü plov, istiotlu-bibərli, ələyəzli duru yarma, təndir közündə basdırma, sümbədə bişirilən kartof kababı, közdə bişirilən çuğundur, heyva kimi nemətlər də qış fəslinin yeməkləridir.

*Sümsümə,* bəlkə də, 50-60 ildir, tamamilə unudulub. Adi arpa unundan hazırlanırdı. Tavada soğançalı inək yağında tovlanıb qızarana yaxın 2-3 stəkan su tökülüb qaynadılırdı. Sinə sətəlcəminin əlacı idi.

*Xəşil.* Yaz buğdası unundan bişirilər. Ortasında oyma yaradılar. İnək yağı dağ edilərək bal, doşabla xəşilin ortasına süzülər. Ata-baba adətidir, xəşili əllə yeyərlər.

*Südlü yarma.* Bir dəfə Şərurun Dəmirçi kəndindən olan tanınmış “Nurani” yallı ansamblının üzvü ağsaqqal Kamil baba dedi ki, buğda sünbülü bozaranda bir bağ yığıb həyətə gətirirəm. Sütül ütürəm, əfsəyib sinidə tərtəmiz püfədən çıxarıram. Yuyub qurudurlar. Əl kirkirəsində yarmasını çəkirlər. Qışda çim südə (yəni təzə sağılan) bu yarmadan əlavə edib bişirirlər. Süfrəyə çəkilən kimi üzü qaymaq bağlayır.

*Hədik* təzə diş yaran körpənin adına tutular, buğda, noxud, lobya, qarğıdalı qarışığından qazan asılar. Deyirlər ki, belə həl-məl bişən, qonum-qonşu, qohum-əqrəbaya tutulan paydan sonra körpə dincələr, nimçəni qaytaranda yerinə hədiyyə, pay-puş da qoyular.

Bu da yaddaşlardadır ki, diş yaran körpə deyər: – Anam bilsə ki, diş yarmağın əzabı nədir, yaylığın da satmalı olsa, mənə hədik qoyar.

Buğda, noxud, küncüd, mərcimək sacda qovrulub ortaya gələndə, tut, ərik qurusu, qoz-fındıq ləpəsi əlavə edəndə dadı damaqdan getməz. Sərində saxlanan alma, heyva süfrəyə gələndə yanaqları tərləyir.

Qışa tədarük olunan nemətlər barədə bir alqış da var:

– Əkdiyinizi biçəsiniz, biçdiyinizi döyəsiniz, döydüyünüzü də ağız şirinliyi ilə yeyəsiniz, axırda nəvələrə nağıl deməyi də unutmayasınız ki, şirin yuxuları bala dönsün.

Yağan quşbaşı, lopa, çoban yarması qar da torpağın yorğanı olar.

**Qaşdar ƏLİYEV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 fevral 2016-cı il tarixdə ilkin və təkrar açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | Əmlakın (15%) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayon Qarabağlar kəndində yerləşən, 256,6 kv.m yaşayış sahəsindən, 221,8 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 27.000 | 27.000 | – | 1 350 |
| 2. | Kəngərli rayon Qarabağlar kəndində 0,2373 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 50,31 kv.m yaşayış, 211,61 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 22.500 | 22.500 | – | 1 125 |
| 3. | Naxçıvan şəhəri, K.Talıblı küçəsi, ev 1, 2 ünvanında yerləşən mənzil | Naxçıvan şəhəri, K.Talıblı küçəsi | 25.232 | 25.232 | – | 1 261,60 |
| 4. | Şahbuz rayon Ayrınc kəndində 0,46 ha torpaq sahəsində yerləşən iki girişli 482,56 kv.m ümumi, 482,56 kv.m əsas sahədən ibarət qeyri-yaşayış binası (tövlə) | Şahbuz rayon Ayrınc kəndi | 96.000 | | 81.600 | 4 800 |
| 5. | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi, döngə 1-də 0,0674 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 56,3 kv.m yaşayış, 21,3 kv.m qeyri-yaşayış, 13,4 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi | 75.000 | | 63.750 | 3 750 |
| 6. | Naxçıvan şəhəri, N.Nərimanov küçəsində 0,028 ha torpaq sahəsində yerləşən 1-(2) mərtəbəli, 5 otaqlı, 78,74 kv.m yaşayış, 59,64 kv.m köməkçi sahədən ibarət 11 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, N.Nərimanov küçəsi | 45.000 | | 38.250 | 2 250 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin və təkrar satış qiymətinin 5% məbləğində beh “Kapital Bank” ASC Şərur rayon filialında olan AZ60AIIB32051019443360201133 nömrəli hesaba və “Beynəlxalq Bank” ASC-nin Naxçıvan filialının AZ03NABZ01350100000000002944 nömrəli hesabına 15 fevral 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür. Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti, 6) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər. Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *kommersiya banklarına ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 19 fevral 2016-cı il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz. Əlaqə telefonu: 545-01-38**

## Culfa şəhərindəki uşaq bağçası
### *2016-cı il üçün kotirovka elan edir*

*Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 28 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 3 fevral 2016-cı il tarixdə saat $11^{00}$-də Culfa Rayon İcra Hakimiyyətində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Sevinc Seyidova***
***Telefon: 546-06-57***
***Ünvan: Culfa şəhəri, Heydər Əliyev prospekti, 25***

## Culfa Rayon Təhsil Şöbəsi
### *2016-cı il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 5 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 8 fevral 2016-cı il tarixdə saat $11^{00}$-də Culfa Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Həzi Quliyev**
**Telefon: 546-02-80**
**Ünvan: Culfa şəhəri, Məhərrəm Əsgəroğlu küçəsi**

## “İnformasiya cəmiyyəti: sosial şəbəkələr və ailə dəyərlərimiz” mövzusunda maarifləndirici tədbir keçirilib

Şərur şəhərində keçirilən tədbiri Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Nuranə İsmayılova açaraq gənclər arasında keçirilən belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov “Sosial şəbəkələr və milli dəyərlərin fundamentində ailə dəyərləri” mövzusunda çıxış edərək bildirib ki, tədbirin keçirilməsində məqsəd gəncləri inkişafın əsas tərəfi olan müasir informasiya-kommunikasiya texnologiyalarından çəkindirmək deyil, həyatımıza daxil olan bu yenilikdən düzgün istifadə etmədikdə xalqımızın ailə dəyərlərinə vurduğu zərbələri izah etmək, ailə dəyərlərimizin müqəddəsliyini və həyatımızdakı əvəzsiz rolunu gənclərə xatırlatmaqdır. Vurğulanıb ki, virtual məkan genişləndikcə internetdə mövcud olan sosial şəbəkələrin də sayı artır. Danılmaz faktdır ki, bu resursların əsas istifadəçi kütləsi gənc nəslin nümayəndələridir. Bu səbəbdən də gündəlik həyatımızda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəflərini də görürük. Gənclər müstəqil həyata yeni qədəm qoyduğundan istənilən vasitədən alınan informasiya onların düşüncə tərzinə birbaşa təsir etmək gücünə malikdir. Buna görə də ailə dəyərlərimizə zidd informasiyanın çoxluğu və həmin informasiya kanallarına çıxışın asan olması gənclər üçün gizli təhlükə mənbəyidir.

Ailə təktərəfli münasibət əsasında yaranan qurum deyil. Bu səbəbdən ailə üzvlərinin hər biri milli-mənəvi dəyərlərin, ailə mədəniyyətinin, nəsillərarası münasibətlərin qorunub saxlanılmasına vaxt ayırmalı, öz üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev “Gənclərin inkişafında sosial şəbəkələrin faydası və zərəri”, Naxçıvan Müəllimlər İnstitutunun müəllim-psixoloqu Çapay Quliyev “İnformasiya bolluğunun ailədaxili münasibətlərə psixoloji təsiri” mövzularında çıxış edərək gənclərin sosial şəbəkələrdə aktivliyindən, muxtar respublikada azad informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlərdən, ailələrin müasir dövrdə informasiya bolluğunda düzgün seçim etməsinin yollarından və informasiya-kommunikasiya texnologiyalarından qeyri-düzgün istifadənin ailələrdə yaratdığı psixoloji çətinliklərdən ətraflı bəhs ediblər. Bildirilib ki, ailə dəyərlərimiz ilə formalaşıb inkişaf edən hər bir ailə səmimi münasibətlərə əsaslanaraq mədəni-psixoloji əlaqələrə və meyarlara söykənir. Ailənin mahiyyəti onun funksiya və quruluşundan, hər bir ailə üzvünün yerinə yetirməli olan vəzifəsindən çox asılıdır. Buna görə də ailəyə sərf olunmalı vaxtı şəxsiyyət üçün fayda verməyən informasiya resurslarına qurban vermək olmaz. Bu həm gənclərin fərdi inkişafına mənfi təsir edir, həm də digər ailə üzvlərində psixoloji gərginlik yaradır.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb və onlara broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### *İtmişdir*

Qurbanov Elnur Abdulla oğlunun adına olan 0900093402 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 67